*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 431-438*

https://doi.org/10.62837/2025.10.431

**TOFİQ ƏLIAĞA OĞLU İSGƏNDƏROV**
**ADPU Cəlilabad filialı**
**"Dil- ədəbiyyat və pedaqoji elmlər,**
**onların tədrisi texnologiyası" kafedrası**
**baş müəllim**

# XX ƏSR İCTİMAİ-SİYASİ MÜHİTİ VƏ "MOLLA NƏSRƏDDİN" ƏDƏBİ MƏKTƏBİ

**Xülasə**

"Molla Nəsrəddin" jurnalı XX əsr Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində misilsiz bir rola malikdir. Jurnal vasitəsi ilə böyük sənətkarlarımızın əsərləri bütün Yaxın və Orta Şərqə yayılaraq şöhrət tapmışdır. Jurnalın redaktoru Cəlil Məmmədquluzadə və digər əməkdaşlarından Mirzə Ələkbər Sabir,Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi və xalq hərəkatına rəğbət bəsləyən xalqımızın daha başqa böyük ziyalıları "Molla Nəsrəddin"də əsərlər nəşr etdirir, yeni hərəkatı və mədəniyyəti təbliğ edirdilər. Beləliklə, həm jurnalın nömrələri, həm də əməkdaşların əsərləri Azərbaycanda, bütün Zaqafqaziyada, hətta İraq, Türkiyə və başqa ölkələrdə geniş yayılırdı.

Mollanəsrəddinçilər XIX əsr Azərbaycan maarifçi ziyalılarının - Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani və başqalarının demokratik fikirlərini yaradıcı şəkildə inkişaf etdirirdilər. Bu isə o deməkdir ki, "Molla Nəsrəddin" jurnalı özünəqədərki mütərəqqi mətbuatın ənənələrini davam etdirir və hadisələri məzmunca yeni ictimai-siyasi şəraitin tələblərinə uyğun olaraq satira güzgüsü ilə işıqlandırırdı.İyirmi beş il ərzində jurnalda çap olunan müxtəlif janrlı əsərlər ölkənin xaricində və daxilində baş verən hadisə və prosesləri tam zəhmətkeş xalq kütlələrinin mənafeyinə uyğun şəkildə əks etdirirdi.

**Açar sözlər.** Cəlil Məmmədquluzadə, mollanəsrəddinçilər, ədəbi məktəb, satirik üslub, inqilabi satira, satirik şeir, "Molla Nəsrəddin" jurnalı

**Tofig Aliaga oglu Isgandarov**
**Head of the Department of Language, Literature and Pedagogical Sciences, Their Teaching Technology Yadulla Beydulla oglu Dadashli**

**Summary**

The *Molla Nasreddin* magazine holds an unparalleled role in the history of 20th-century Azerbaijani literature and press. Through this publication, the works of our great artists spread across the Near and Middle East, gaining widespread recognition. The magazine's editor, Jalil Mammadguluzadeh, along with contributors such as Mirza Alakbar Sabir, Abdurrahim bey Hagverdiyev, Ali Nazmi, Aliqulu Gamkusar, Mammad Said Ordubadi, and other prominent intellectuals who supported the national movement, published their works in *Molla Nasreddin*, promoting a new cultural and social awakening. As a result, both the magazine's issues and its contributors' writings were widely circulated in Azerbaijan, throughout the South Caucasus, and even in countries like Iraq, Turkey, and beyond.

The *Molla Nasreddinists* creatively developed the democratic ideas of 19th-century Azerbaijani enlightenment thinkers such as Abbasgulu agha Bakikhanov, Mirza Fatali Akhundov, Hasan bey Zardabi, Najaf bey Vazirov, Seyid Azim Shirvani, and others. This means that *Molla Nasreddin* continued the progressive traditions of earlier press and reflected events through the lens of satire, adapting to the demands of the new socio-political environment. Over twenty-five years, the magazine published works in various genres that portrayed domestic and international events and processes in a way that aligned with the interests of the working masses.

**Keywords**. Jalil Mammadguluzade, Molla Nasreddinists, Literary School, Satirical Style, Revolutionary Satire, Satirical Poetry, "Molla Nasreddin" journal

**Резюме**

Журнал *«Молла Насреддин»* сыграл беспрецедентную роль в истории азербайджанской литературы и прессы XX века. Благодаря этому изданию произведения наших выдающихся мастеров распространились по всему Ближнему и Среднему Востоку, приобретя широкую известность. Главный редактор журнала Джалиль Мамедкулизаде и его соратники — Мирза Алекпер Сабир, Абдуррахим бек Хагвердиев, Али Назми, Аликули Гямкюсар, Мамед Саид Ордубади, а также другие выдающиеся деятели, сочувствующие народному движению, публиковали свои произведения в *«Молла Насреддин»*, продвигая новую культуру и общественное пробуждение. Таким образом, как номера журнала, так и произведения его авторов широко распространялись не только в Азербайджане и Закавказье, но и в таких странах, как Ирак, Турция и других.

Молланасреддинцы творчески развивали демократические идеи азербайджанских просветителей XIX века — Аббаскули ага Бакиханова, Мирзы Фатали Ахундова, Гасана бека Зардаби, Наджафа бека Вазирова, Сеида Азима Ширвани и других. Это означает, что журнал *«Молла Насреддин»* продолжал прогрессивные традиции предшествующей прессы и освещал события через призму сатиры, соответствуя новым общественно-политическим условиям. В течение двадцати пяти лет в журнале публиковались произведения различных жанров, отражающие внутренние и внешние события и процессы в интересах трудящихся масс.

**Ключевые слова**. Джалиль Мамедкулизаде, Молланасреддинцы, Литературная школа, Сатирический стиль, Революционная сатира, Сатирическая поэзия, Журнал «Молла Насреддин»

Azərbaycan satirik mətbuatının zirvəsi olan "Molla Nəsrəddin" jurnalı Şərqdən Qərbə böyük bir coğrafi ərazidə yayılaraq şöhrət qazanmış, mollanəsrəddinçilər ədəbi nəslinin ölməz irsinin tanıdılması və təbliğində mühüm rol oynamışdır. "Mollanəsrəddinçilər", ilk nömrədən başlayaraq, məqalələrini "türkün ana dilində"(1, səh.70),sadə danışıq tərzində,xalqın anlayacağı, başa düşəcəyi dildə yazdılar.Ona görə də jurnalın xalq qarşısında xidmətləri çoxmilyonlu oxucular tərəfindən həmişə maraqla qarşılanmışdır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 431-438*

"Molla Nəsrəddin" jurnalı XIX əsrdə "Əkinçi" qəzetində bünövrəsi qoyulan mətbuat üslubu və mütərəqqi ənənələri siyasi hadisələrlə dolu XX əsrdə nəinki davam etdirir,ona yeni məzmun, yeni ruh verir,həm də yeni janr və yeni bədii formalarla zənginləşdirirdi. Həyat amalı, qarşıya qoyduğu məqsəd və vəzifələr uğrunda zəhmətkeş xalq kütlələrinin mənafeyinə uyğun fəaliyyəti ilə jurnal dövrünün bütün tərəqqipərvər orqanlarının dayağına çevrilmişdi. Xalq arasında böyük rəğbətlə "Molla Nəsrəddin" məktəbi böyük məktəbdir" - deyə xatırlanan jurnalın redaksiyası,həm də "Mollanəsrəddinçilər" ordusunu və "Molla Nəsrəddin" üslubunu şöhrətləndirirdi. Getdikcə fəaliyyətini genişləndirən, qonşu ölkələrdə də zəhmətkeş kütlələrin sevimlisinə çevrilən jurnalın təsiri ilə Azərbaycan dilində başqa satirik jurnallar da çap olunmağa başladı. Bunlara "Bəhlul" (1907-ci il), "Zənbur" (1909-1910), "Azərbaycan" (1909-1910), "Tuti" (1914-1917), "Kəlniyyət" (1912-1913), "Mirat" (1910-cu il), "Ari" (1910-1911), "Məzəli" (1914-1915), "Babayi-Əmir" (1915-1916), "Məşəl" (1919-cu il) jurnalları misal göstərmək olar. Milli istiqlal uğrunda və mövhumata qarşı ardıcıl mübarizə jurnalın əsas qayəsi və ali məqsədi idi.Bu mübarizədə "Molla Nəsrəddin"jurnalının tənqid hədəfləri də çox geniş idi. Buna Amerika və İngiltərə imperialistlərini, İran və Türkiyə despotları, adi tüfeylilər, mövhumat, istismarçı sinifləri və s. misal göstərmək olar. Jurnal inqilabi- demokratik orqan kimi sadə xalq kütlələrində mütləqiyyət hakimiyyəti və onun havadarlarına qarşı qatı nifrət və qəzəb oyadırdı.

Qeyd etmək lazımdır ki, mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olan XX yüzilliyin əvvəllərində mətbuat orqanlarının çox olmasına baxmayaraq, heç biri "Molla Nəsrəddin" qədər sabitqədəm ola bilməmiş və xalq mənafeyinin müdafiəsində onun səviyyəsinə yüksələ bilməmişdi. Fəaliyyətlərində bəzən "Molla Nəsrəddin" ənənələrini davam etdirsələr də, onun ideyalarının davamçısı olsalar da, o qədər də geniş proqramla çıxış edə bilməmişdilər. Xalq hərəkatına rəğbət bəsləyən,onu təqdir edən və mənafeyini müdafiə edən "Molla Nəsrəddin" jurnalı zəhmətkeş xalqın mütləqiyyət hakimiyyətinə və istismarçı siniflərə qarşı apardığı mübarizənin tam mərkəzində dayanır, demokratik azadlıqların keşiyində dururdu.

Jurnalın bütün fəaliyyəti car hakimiyyətinə, istismarçı siniflərə və burjua mətbuatına qarşı mübarizə tarixidir. Bu mənada "Molla Nəsrəddin" jurnalının mübarizəsi, əməkdaşlarının fəaliyyəti ədəbiyyatşünas və tədqiqatçılarımız tərəfindən nə qədər çox araşdırılsa, dövrün siyasi mənzərəsi bir o qədər də aydın görünər.Jurnal əsrin əvvəllərində dünyada baş verən ictimai –siyasi hadisələr, xüsusən 1905 – ci il rus inqilabından sonrakı siyasi vəziyyətin və siniflərarası mübarizənin kəskinləşdiyi dövrün yaratdığı zərurətdən meydana gəldi. Bu zaman Rusiyada gedən ictimai-siyasi və mədəni proseslər ucqarlara da yayılırdı. Bunun nəticəsində Azərbaycanda müasir teatr yaranır və formalaşır, yeni tipli məktəblər açılır, dövri mətbuat orqanlarında maraqlı əsərlər çap olunurdu.Jurnalın əməkdaşları böyük bir ordunu xatırladırdı. Həqiqətən, sinfi mübarizənin gərginləşdiyi belə bir zamanda zəhmətkeş xalqın mənafeyini müdafiə edən demokratik ruhlu bir orqana ehtiyac var idi.Elə bir jurnal ki, yeni tarixi şə-

raitin tələblərinə və zamanın yüksəlişi ilə artan zəruri ehtiyaclara cavab verə bilsin.Odur ki, “Molla Nəsrəddin”də XX əsr ictimai fikir tariximizin bütün əsaslı məsələləri real şəkildə əks olunurdu. Jurnal Azərbaycanın daxili həyatında baş verən müxtəlif siyasi - iqtisadi hadisələri çox tez işıqlandırır və ona münasibət bildirirdi.

Jurnalın nəşri haqqında danışarkən Cəlil Məmmədquluzadə xüsusi qeyd edirdi ki, “Molla Nəsrəddin”i təbiət özü yaratdı, zamanə özü yaratdı”.(1.səh.69). Görkəmli mollanəsrəddinçilər özlərinin ideya baxışları, bədii və publisistik ustalıqları ilə eyni səviyyədə olmasalar da, jurnalın fəaliyyəti boyunca ümumi bir siyasi xətti müdafiə etmişlər. Jurnalda sənətkarlar, tacirlər, ziyalılar içərisindən çıxmış əsas və daimi əməkdaşlarla birlikdə, Azərbaycanın fəhlə və kəndliləri də müxbir sifəti ilə iştirak edirdilər. Xalq mənafeyi uğrunda genişlənən hərəkatın bünövrəsi daha əvvəllər qoyulmuşdu. XIX əsrdə mövcud ictimai- siyasi və mədəni əlaqələr nəticəsində Azərbaycanda demokratik fikirli ziyalıların bütöv bir nəsli yetişirdi.Əsrin əvvəllərində Abbasqulu ağa Bakıxanov (Qüdsi), İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, daha sonra Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi (Məlikov), Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov və bir çox başqa maarifpərvər ziyalılar, ictimai xadimlər əzmlə var qüvvələrini xalqın maariflənməsinə sərf edirdilər. Onlar xalqın mədəni tərəqqisi və rifah halının yaxşılaşması naminə məktəblər açmaq və qəzet nəşr etmək işinə böyük önəm verir, bilik və bacarıqlarını əzmkarlıqla bu işə sərf edirdilər.

Bu mənada A.Bakıxanovun məktəb açmaq təşəbbüsü və “Tiflisskoye vedomosti” qəzetinin azərbaycanca nəşri ilk təşəbbüs kimi böyük əhəmiyyət kəsb edir.Lakin bu da bir faktdır ki,çar hökumət orqanları digər Qafqaz xalqlarının dillərində müxtəlif mətbuat orqanlarının nəşrinə şərait yaratdığı halda, azərbaycanca qəzet nəşrinə çox qısqanclıqla yanaşır və hər cür maneə yaratmağa çalışırdılar. “Tiflisskoye vedomosti” rus dilində1828-ci ildən, gürcü dilində 1829-cu ildən, fars dilində 1830-cu ildən nəşr olunduğu halda, Azərbaycan dilində1832-ci ildən nəşr olunmağa başlayıb. Çox qısa müddət ərzində nəşr olunub. Lakin onun bircə nüsxəsi də əldə yoxdur. Mənbələrdə yalnız qəzetin nəşr edilməsi haqqında məlumat qeyd olunur. Hansı materialları dərc etdirməsi, hansı müddətə nəşr olunması haqqında heç bir məlumat yoxdur.

Nəhayət, Tiflisdə 1838-ci ildən nəşr olunan “Zakavkazskiy vestnik” qəzeti əvvəlcə rus dilində,1845-ci ildən isə gürcü və Azərbaycan dillərində çox qısa müddətdə nəşr olunmuşdur. Həmin qəzet rus dilində 1864-cü ilə qədər nəşr olunmuşdur. Tədqiqatçıların verdiyi məlumatlardan aydın olur ki, qəzetin azərbaycanca nəşrində rəsmi hökumət xəbərləri və daxili məsələlərə dair materiallar dərc olunmuşdur.

“Əkinçi” yə qədər və “Əkinçi”nin bağlanmasından sonra Azərbaycan dilində qəzet nəşr edilməsi üçün nə qədər təşəbbüs edilsə də, çarizm bütün təşəbbüslərin qarşısını alır, həyata keçirilməsinə mane olurdu. “Əkinçi”dən sonra “Ziya”(1879-1880), “Ziyayi Qafqaziyyə”( 1880- 1884), “Kəşkül”(1884-1891) kimi qəzetlərin də nəşri qısa müddətli oldu.“Əkinçi” qəzeti 1877-ci ildə bağlanandan sonra bu qəzetlər mürtəce mövqeyi və mühafizəkarlığına baxmayaraq, yenə də anadilli mətbuatımızın inkişafı-

na əhəmiyyətli təsir göstərmişdi. Lakin "Kəşkül" qəzeti müəyyən qədər digər mətbuat orqanlarından mütərəqqi xüsusiyyətləri ilə fərqlənirdi. 1891-ci ildə "Kəşkül" qəzeti (redaktoru-Səid Ünsizadə) bağlandıqdan sonra, "Şərqi-Rus" qəzetinin (redaktoru-M. Şahtaxtlı) nəşrinə (1903) qədər keçən 10 ildən artıq bir müddət ərzində çar hökuməti Azərbaycan dilində heç bir mətbuat orqanının nəşrinə icazə vermədi. Lakin "Şərqi – Rus"qəzeti ardıcıl demokratik mövqe tuta və bir çox hallarda prinsipiallıq göstərə bilməsə də, ədəbiyyat və mətbuat aləmində canlanma yaratmış və məfkurə mübarizəsinin qızğınlaşmasına səbəb olmuşdu. Demokratik ruhlu ziyalıların, şair və ediblərin bir şoxu onun ətrafında toplaşmışdı. Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Əli Nəzmi kimi şairlər "Şərqi – Rus"da əməkdaşlıq edir, nəşrini alqışlayırdılar. Bütün bunlara görə "Şərqi – Rus" qəzetinin fəaliyyəti heç də asan olmamışdı, o təqib olunurdu. İlk nömrələrindən başlayaraq onun səhifələrində mədəniyyətdə və ictimai həyatda dəyişikliklərin edilməsi barədə yeni fikirlər (əlifbanın dəyişdirilməsi, hicab məsələsi və s.) irəli sürülmüşdü. Bir tərəfdən Bakı burjua jurnalistləri, digər tərəfdən isə Qafqaz senzura işləri komitəsində, Azərbaycan mətbuatının inkişafına düşmən olan senzorlar tərəfindən şiddətli hücumlara məruz qalırdı. Nəticədə 1905- ci ildə tutarlı səbəb olmasa da, əllərinə düşən bəhanədən lazımınca istifadə edən senzura orqanları qəzetin nəşrini dayandırdılar.

Beləliklə, əsrin 50-60-cı illərində ("Əkinçi"nin nəşrinə qədər) müşahidə olunan ictimai-siyasi vəziyyət gərginləşdi, senzura idarələrinin fəaliyyəti "Kəşkül"ün bağlanmasından sonra daha da kəskinləşdi. Bu dövrdə Azərbaycan ziyalıları qəzet çıxarmaq üçün dəfələrlə təşəbbüs etmişdilər. 1896-cı ildə M.A.Şahtaxtlı Tiflisdə Azərbaycan dilində "Tiflis" adlı qəzetin, 1895-ci ildə Nəriman Nərimanov "Təvəkkül" adlı qəzetin,1900-cü ildə Kamal Ünsizadə "Daniş"(Bilik) adlı qəzetin nəşrinə icazə üçün hökumətə müraciət etmişdilər. Lakin bütün hallarda onların bu təşəbbüsləri nəticəsiz qalırdı. N.Nərimanov qəzetin məqsədini Azərbaycan xalqının maariflənməsi və mədəni inkişafı ilə əlaqələndirdiyinə görə senzura orqanları onun çap olunmasını qadağan etdilər. Hətta yeni əsrin əvvəllərində belə 1905-ci ildə N. Nərimanov "İrşad" adlı yeni bir qəzet yaratmaq istədi. Bu barədə müvafiq icazə də aldı. Lakin yenə də senzura qaydalarının kəskinliyi və imperiya tələbləri səbəbindən qəzetin nəşrinə icazə verilmədi. Çünki dövlət cəmiyyətin maariflənməsi və inkişafı üçün muasir fikirlərin yayılmasını istəmirdi.

Məlumdur ki, mütləqiyyət hakimiyyəti xalqları nə qədər zülm altında saxlamağa çalışsa da, xalqın azadlıq istəyi əsarət zəncirini qırmağa qadirdir. Belə hallarda xalqın ictimai-siyasi və mədəni həyatında həmişə tərəqqi başlayır. Rusiyada gedən ictimai-siyasi proseslər Azərbaycanda da öz təsirini göstərirdi. Siyasi tətillər və üsyanlar milli-azadlıq hərəkatının, mədəni həyatın yüksəlməsinə min yaradırdı. 1905-1907-ci illərin inqilabi hadisələrindən sonra azərbaycanlı ziyalılar yeni ideyalara maraq göstərir və xalqın maariflənməsinə böyük önəm verirdilər.

Bu mənada Azərbaycanda maarifçilik hərəkatı genişlənir, mədəni həyat inkişaf edirdi. Təhsilə və mədəniyyətə maraq artırdı. Mədəni həyatda böyük inkişaf yaranır və müasir Azərbaycan mədəniyyətinin əsasları qoyulurdu.Burjua mətbuatı yaratmaq səylərindəki ziddiyyətlər, müxtəlif qruplar arasındakı çəkişmələr, ədəbiyyat və mətbuatda sinfi mübarizənin gərginləşməsi və s. həqiqətən xalqın, zəhmətkeş siniflərin mənafeyini müdafiə edən bir orqana ehtiyac yaradırdı.Belə bir zamanda "Molla Nəsrəddin" jurnalı inqilabi- demokratik hərəkatın və mövcud siyasi- ictimai həyatımızın inkişafından irəli gələn bir zərurətin nəticəsi olaraq meydana gəlmişdi".(5.səh.71) Bununla da, nəinki qəzetlərin,hətta satirik jurnalların belə nəşrinə münbit şərait yarandı.

"Molla Nəsrəddin"ə qədər Azərbaycan dilində "Şərqi-Rus","Məktəb","Həyat", "Kaspi", "Kavkaz" və başqa qəzetlər nəşr olunurdu. Hətta jurnalın təsiri ilə onun ideyalarını davam etdirən yeni satirik jurnallar da nəşr olunmağa başladı. "Mirat", "Kəlniyat","Tuti"," Məzəli","Zənbur" və başqaları buna bariz nümunədir.Jurnalın nəşrə başlaması ədəbiyyatımızın inkişafı və cəmiyyətin tərəqqisi üçün bir dönüş nöqtəsi oldu. Cəlil Məmmədquluzadə dövrünün qabaqcıl ziyalıları ilə əməkdaşlıq edərək jurnalı regional bir maarifçilik platformasına çevirmişdi.(5.səh.71) Sadə xalq dilində, asan anlaşılan və satirik üslubda yazması geniş oxucu kütlələri arasında jurnalın nüfuzunu artırırdı.

Bunun nəticəsi olaraq, Azərbaycan ədəbiyyatında satirik üslub yeni mərhələyə qalxdı. Mirzə Fətəli Axundovun maarifçi realizmindən qidalanan tənqidi realizm ənənələri "Molla Nəsrəddin"əməkdaşlarının yaradıcılığında daha da dərinləşdirildi. "Molla Nəsrəddin"də çap olunan yazılarda xalqın gerilikdən qurtarması üçün təhsilin əhəmiyyətinə diqqət çəkilir, savadsızlıq, xurafat və fanatizm daim tənqid olunurdu. Geniş və çoxsahəli fəaliyyəti ilə jurnal ədəbiyyat tariximizdə tənqidi düşüncə və maarifçilik hərəkatının yol göstərəni oldu. O, XX əsrin ictimai-siyasi şəraiti və ədəbimədəni mühitində baş verən hadisələrin, mollanəsrəddinçi yazarların zəngin və çoxşaxəli yaradıcılıq fəaliyyətinin göstəricisi oldu. Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Əzim Əzimzadə, Mirzə Ələkbər Sabir və başqa görkəmli ziyalılar xalqın mənafeyinə xidməti özünün ali məqsədi hesab edən mollanəsrəddinçilər üslubu vəədəbi məktəbini dünyada tanıtdılar. Nəticədə "Mollanəsrəddinçilər"Azərbaycan ədəbi və ictimai fikrinin inkişafında mühüm rol oynamış,milli oyanış və maarifçiliyin əsas təməl daşlarından olmuşlar. Onların fəaliyyəti nəticəsində xalqın düşüncə azadlığı və ictimai ədalət anlayışları güclənmişdir.

İlk nömrəsindən başlayaraq çarizmin əksinqilabi siyasətinin ifşası,Yaxın Şərq ölkələrindəki mütləqiyyət hakimiyyəti və imperialist dövlətlərin müstəmləkəçilik siyasəti,maarif və mədəniyyət uğrunda savadsızlığa,cəhalətə qarşı mübarizə, təhsil və qadın azadlığı,həmçinin xalqlar arasında beynəlmiləl münasibətlərin təbliği və s.jurnalın səhifələrində yer tutan daimi mövzulardan idi. Jurnalın ətrafında birləşən yazıçı, rəssam və ziyalıların əsas məqsədi xalqı maarifləndirmək,cəhalətə,savadsızlığa, icti-

mai ədalətsizliyə qarşı mübarizə aparmaq idi. Jurnalın səhifələrində müxtəlif janrdan olan yazılar- felyetonlar, şeirlər,karikaturalar, teleqramlar və s. vasitəsilə cəmiyyətin eybəcərlikləri tənqid olunurdu.

Molla Nəsrəddinçilər xalqı öz hüquqları uğrunda mübarizəyə çağırır, bu işdə xalqın haqqını tapdalayanlara, qanunsuz işlərlə məşğul olan məmurlara qarşı birgə mübarizəsinin vacibliyini önə çəkirdi. Jurnalın geniş bir coğrafiyada yayılıb şöhrət qazanmasında bir amala xidmət edən lakonik publisistik yazıları, satirik parodiyalar şəklində qələmə alınmış poeziya nümunələri və karikaturaları mühüm rol oynamışdır. Həmçinin Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə və b.timsalında Azərbaycanda rəssamlıq sənəti və karikatura yaradıcılığını inkişaf etdirən rəssamlar ordusunun formalaşmasına zəmin yaratmışdır.

Beləliklə,"Molla Nəsrəddin"jurnalı öz dövründə maarifçilik hərəkatının çox güclü bir vasitəsinə çevrilmiş,onun redaktoru Cəlil Məmmədquluzadə isə bu hərəkatın ən böyük simalarından biri kimi tarixdə qalmışdır. Fəaliyyəti boyunca jurnal bütün potensial imkanları və bacarıqları sayəsində fanatizm, irtica və cəhalətlə mübarizəyə xidmət etmişdir. Bəhs etdiyi müxtəlif mövzularla o, xalqı düşündürmək, maarifləndirmək və cəmiyyətdəki problemləri işıqlandırmaq məqsədi daşıyırdı. Bununla da cəmiyyətin sosial, siyasi və mədəni həyatındakı problemləri tənqid etmək,xalqı savadlandırmaq və maarifçilik ideyalarını yaymağı qarşıya qoymuşdu. Jurnal "Sizi deyib gəlmişəm"(1.səh.70) müraciəti ilə ilk nömrəsindən (7 aprel, 1906- cı il) başlayaraq səhifələrində yer alan məqalə və karikaturalarda cəmiyyətin yeniliyə düşmən olan mühafizəkar qüvvələrinə qarşı barışmaz mövqedə dayanır və qatı mübarizə aparırdı. Öz dövrünün aktual mövzularını- təhsil, qadın hüquqsuzluğu, fanatizm, rüşvətxorluq, süründürməçilik, ictimai ədalətsizlik kimi məsələləri satirik dillə işıqlandırırdı. Bununla da Azərbaycanın və bütün müsəlman Şərqinin maarifçilik hərəkatına əhəmiyyətli təsir göstərmişdi. Ümumiyyətlə, "Molla Nəsrəddin" ədəbi məktəbi universal xarakterə malik olub, özündə tənqidi-realist ədəbiyyatı, satirik publisistikanı və karikatura məktəbini birləşdirmişdi. Bu cəhətdən "Molla Nəsrəddin" jurnalı redaksiyası məktəbə çevrilən nadir mətbuat orqanı idi. Mənsub olduğu xalqın milli azadlıq hərəkatına təkan vermək, onu müstəmləkə zülmündən xilas etmək yolunda dönmədən mübarizə aparmaq sahəsində C.Məmmədquluzadə və bütövlükdə "Molla Nəsrəddin" jurnalı ardıcıl və qətiyyətli addımlar atmışdı. Ona görə də C.Məmmədquluzadə ədəbi-ictimai fikrimizin inkişafı tarixində azadlıq uğrunda mübarizənin öndə gedəni olmuşdur.

"Molla Nəsrəddin" Azərbaycanda ilk satirik jurnal olmaqla yanaşı, həm də şəkilli jurnal idi.1906- 1931- ci illərdə Tiflisdə, Təbrizdə, daha sonra isə Bakıda nəşr edilib. İyirmi beş illik fəaliyyəti dövründə jurnalın 340 nömrəsi Tiflisdə (1906 - 1917), 8 nömrəsi Təbrizdə (1921),400 nömrəsi isə Bakıda (1922 - 1931) nəşr olunmuşdur. "İrşad", "Həyat","Tərcüman", "Kavkazskoye utro", "Kaspi", Baku, "Vozrojdeniye", "Na povorote", "Novoye obozreniye" qəzetləri "Molla Nəsrəddin" jurnalını çıxar-

maq təşəbbüsü barədə oxuculara ilk məlumat vermişlər.1906 – cı il fevralın 24 – də bu xəbəri “Novoye obozreniye” qəzeti, daha sonra “Kaspi”, “Kavkazskoye utro”qəzetləri dərc etmişdilər.Nəşr olunduğu dövrdə jurnal bütün Yaxın Şərq ölkələrində yeni tipli maarif və mədəniyyət carçısına çevrilmiş, beynəlxalq aləmdə yayılmışdır.Ətrafında XX əsr Azərbaycan realist ədəbiyyatı və incəsənətinin görkəmli nümayəndələri – C. Məmmədquluzadə, M. Ə.Sabir, Ə. Qəmküsar, M. S.Ordubadi, Ə. Nəzmi, Ə. Əzimzadə, C. Cabbarlı və başqaları toplanmışdı.Fəaliyyəti dövründə jurnal ədəbiyyatda realizm, ideyalılıq, xəlqilik bayraqdarı olmuşdur. Onun təsiri altında Azərbaycanda və bir çox başqa Yaxın Şərq ölkələrində satirik jurnallar çap olunmuş, onun ənənələrini müdafiə və təbliğ etmişlər.

"Molla Nəsrəddin" jurnalının fəaliyyəti və mübarizəsi, XX əsrin birinci rübündən başlayaraq, ədəbiyyatşünaslığımızın, nəzəriyyəçi alimlərin və ədəbi tənqidin diqqət mərkəzində olub, müxtəlif istiqamətlərdə, müxtəlif cəhətlərdən təhlilə cəlb olunmuş, çoxlu sayda elmi tədqiqatların predmetinə çevrilmişdir. Azərbaycan ədəbiyyatşünaslığında və ədəbi tənqidində yüz ildən artıq bir tarixi dövrü əhatə edən jurnal böyük tənqidçilər ordusunun yetişməsinə zəmin yaratmışdır. "Molla Nəsrəddin" ədəbi hərəkatının yaranması, ədəbi məktəb səviyyəsinə yüksəlməsi, beynəlxalq nəzəriyyələr sisteminə daxil olması və dünyəvi xarakter almasında müstəsna xidmətləri olan istedadlı alimlər yetişmişdir.Burada Əli Nazim, Mirzə İbrahimov, Həbibulla Səmədzadə, Əziz Mirəhmədov, Qulam Məmmədli, Nazim Axundov, Məmməd Cəfər Cəfərov, Fərman Bayramov, Mir Cəlal, Firudin Hüseynov, İslam Ağayev, Xeyrulla Məmmədov, Xalid Əlimirzəyev, Yaşar Qarayev, İsa Həbibbəyli və b.şəxsiyyətlərin adını qeyd etmək olar.

## ƏDƏBİYYAT:

1.C.Məmmədquluzadə "Əsərləri" 4 cilddə IV cild "Öndər" nəşriyyatı Bakı-2004
2.C.Məmmədquluzadə "Əsərləri" 4 cilddə lll cild "Öndər" nəşriyyatı Bakı-2004
3.Ə.Mirəhmədov, "Azərbaycan Molla Nəsrəddini" "Yazıçı" nəşriyyatı Bakı-1980
4.C.Məmmədquluzadə "Əsərləri" 4 cilddə ll cild "Öndər" nəşriyyatı Bakı-2004
5.T.Salamoğlu.XIX əsrin sonu,XX əsrin əvvələrində Azərbaycan ədəbiyyatının aktual problemləri.Elm və təhsil. Bakı.2021
6.B.Əhmədov "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" 3 cilddə l cild. “Elm və təhsil”. Bakı.2011
7. G.Babayeva. "Molla Nəsrəddin" jurnalı və milli ədəbi dəyərlər.Elm və TəhsilBakı. 2020.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Yadulla Dadaşlı**